analysis.

**Redaksiyaya daxil olub:** 12.02.2019

# İngilis dili dərslərində pedaqoji yaradıcılıq və yuxarı sinif şagirdlərində idrak fəallığının formalaşdırılmasında onun rolu

**Rəbiyə Qəniyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** rabiye.n@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. A.N. Abbasov,
ped.ü.f.d. F. Rzayeva

**Açar sözlər:** ingilis dili dərsləri, pedaqoji yaradıcılıq, yuxarı sinif şagirdləri, idrak, idrak fəallığı, idrak fəallığının formalaşdırılması

**Ключевые слова:** уроки английского языка, педагогическое творчество, старшеклассники, познание, познавательная активность, формирование познавательной актив ности

**Key words:** English language lessons, pedagogical creativity, high school students, cognition, cognitive activity, the formation of cognitive activity

Yaradıcılıq müxtəlif səviyyələrdə olur. Əgər bir səviyyə üçün artıq mövcud olan biliklərdən istifadə və onların tətbiqi istiqamətini genişləndirmək səciyyəsidirsə; digər səviyyə üçün obyektə, yaxud biliklər sahəsinə ilkin baxışı dəyişən tamamilə yeni yanaşma mövcud olur.

Yaradıcılığı yeninin yaradılması prosesi kimi başa düşmək mümkündür. S.L.Rubinşteynin yaradıcılığa verdiyi tərifə diqqət yetirək: "Yaradıcılıq insanın xüsusi növ fəaliyyəti olub ictimai əhəmiyyəti olan maddi və mənəvi dəyərlərin yaradılması prosesidir. Yaradıcılıq da mahiyyət etibari ilə idrakdır. Yaradıcılığa sadəcə olaraq idrakdır demək də azdır. Ona görə ki, hər cür idrak fəaliyyəti elə insanın fəallığıdır. Yaradıcılıq insanın fəallığının xüsusi formasıdır".

Yaradıcılıq zamanı şəxsiyyətin, o cümlədən yuxarı sinif şagirdlərinin hər bir psixi prosesi, məktəblinin duyğu, qavrayış, təfəkkür və təxəyyülü, hafizəsi iştirak edir. Təlim fəaliyyətində təxəyyülün rolu böyükdür. Təxəyyül yalnız ədəbi-bədii yaradıcılıqda deyil, elmi yaradıcılıqda da mühüm bir proses hesab olunur.

Hazırda ingilis dilinə yiyələnmə müəllimin peşə səriştəliliyinin mühüm şərtlərindən biridir. İngilis dili beynəlxalq informasiya məkanı ilə ünsiyyət bağlamağa şərait yaradır. Yuxarı siniflərdə bəzi şagirdlərin ingilis dilini öyrənməyə marağı azalır. Odur ki, məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində idrak fəallığının inkişaf etdirilməsi istiqamətində axtarışlar davam edir. Alimlərin qənaətincə, pedaqoji yaradıcılıq şagirdlərdə idrak fəallığının formalaşdırılmasının mühüm şərtlərindən biridir.

Pedaqoji fəaliyyət daimi, sürəkli yaradıcılıq prosesidir. Fəqət başqa sahələrdəki (elm, texnika, mədəniyyət) fərqli olaraq, müəllimin yaradıcılığının məhsulu həmişə şəxsiyyətin formalaşdırılması və inkişaf etdirilməsi olur.

Yaradıcı işləyən, novator olan müəllim öz pedaqoji sistemini yaradır. Pedaqoji fəaliyyət nəinki kəmiyyət tədbirlərinə, həmçinin kəmiyyət xarakteristikalarına malikdir. Müəllimin öz fəaliyyətinə yaradıcı münasibətinin səviyyəsini müəyyən etməklə pedaqoji əməyin məzmununu və təşkilini düzgün qiymətləndirmək mümkündür. Müəllim qarşıda dayanan vəzifələrə çatmaq üçün öz imkanlarından hansı səviyyədə faydalana bilir? Bu məsələyə aydınlığın gətirilməsi vacibdir. Məhz buna görədir ki, pedaqoji fəaliyyətin yaradıcı xarakteri onun obyektiv səciyyələndirilməsində son dərəcə zəruri sayılır.

Pedaqoji fəaliyyətin öz təbiəti etibarilə yaradıcı olması fikrinə də şərti yanaşılmalıdır. Bu da bir həqiqətdir ki, yaradıcı olmayan əmək, şəraitində də işçi yaradıcılığın müəyyən elementindən istifadə edə bilər; eyni zamanda pedaqoji fəaliyyət elə qurular ki, yaradıcı əsasa zərbə endirərək onu şablon halına gətirə bilər.

Yaradıcılıq o zaman meydana gəlir və o şəxslər yaradıcılıq nümayiş etdirirlər ki, əməyə dəyər versinlər, peşə səriştəliliyinə, pedaqoji ustalığa yiyələnsinlər.

Yaradıcı şəxsiyyətə xas olan keyfiyyət və xüsusiyyətlə:

1. Müəllimin mədəniyyətinin səviyyəsi yüksək olsun. O, etik davranış qaydalarına yiyələnir, davranış və rəftar nümunəsi göstərir.

2. Müəllim elmi erudisiyaya və elmi təfəkkürə yiyələnmiş olsun. O, öz vəzifəsini təkcə fənnini yaxşı bilməklə məhdudlaşdırmamalı, qarışıq elmlərin inkişafının aktual istiqamətlərindən xəbərdar olmalıdır.

3. Psixoloji mədəniyyətə yiyələnməlidir.

4. Özünü təkmilləşdirməlidir. Özünü təkmilləşmə özünüdərki, özünü obyektiv qiymətləndirməni, qabaqcıl təcrübədən yaradıcı isifadəni, pedaqoji innovasiyaların tətbiqini özündə birləşdirir.

Bu həqiqətdir ki, pedaqoji əmək mahiyyəti etibarilə əqlidir, əqli olmaq isə, yaradıcı olmaq deməkdir. Lakin əqli əməyi də yaradıcı əməklə eyni götürmək olmaz.

Xüsusi hazırlıq, nəsillərin qazandığı sosial təcrübəni özündə əks etdirən biliklər olmadan, pedaqoji yaradıcılıq nümayiş etdirmək də çətindir. Yalnız səriştəli ingilis dili müəllim baş qaldıran bu və ya digər pedaqoji vəziyyəti təhlil edib lazımınca qiymətləndirə və zəruri ölçü götürə, yaxud istiqamətləndirə bilər. Bu zaman, təbii ki, yaradıcı təxəyyül və fikri eksperiment köməyə gəlir.

Başqa insanlarda olduğu kimi, müəllimin də yaradıcı imkanları şəxsiyyətin bir sıra xüsusiyyətləri ilə səciyyələnir ki, bu səciyyələnməyə yaradıcı şəxsin əlamətləri deyilir. Bu tip bəzi əlamətləri diqqət mərkəzinə gətirmək mümkündür:

İngilis dili müəllimi, ilk növbədə vəziyyətdən çıxış yolunu tapmağı və onlardan faydalanmağı bacarmalıdır;

— ingilis dili müəlliminin gördüyü tədbirlər optimal olmalı, şagirdlərdə məmnunluq, razə qalma hissləri yaratmalıdır;

— vəziyyəti qiymətləndirərkən şagirdlər arasında fərq qoymamalıdır və s.

Digər əlamətləri də qeyd edə bilərik:

— müəllimin çətinlik çəkmədən və dərhal qiymətləndirici qabiliyyət nümayiş etdirməsi və təfəkkürün tənqidiliyinə malik olması;

— yaddaşın möhkəmliyi (sistemli biliklərin böyük həcminə yiyələnmək, biliklərin həyatiliyi, yəni lazım gələn anda köməyə çatması, dinamikliyi və s.

E.S. Qromov və V.A. Molyako kreativliyin 7 əlamətinə diqqəti yetirirlər: orijinallıq, evristiklik, fantaziya, fəallıq, zənginlik, dəqiqlik, həssaslıq.

Pedaqoji ədəbiyyatda yaradıcı şəxsin *nəzəriyyəçi-məntiqi tipi* diqqət mərkəzinə gətirilir.

Bu tip üçün səciyyəvi olanlar aşağıdakı cəhətlərdir: informasiyanı məntiqi baxımdan geniş şəkildə ümumiləşdirmə, təsnifetmə və sistemləşdirmə bacarığı. Bu tipə məxsus insanlar, müəllimlər, o cümlədən ingilis dili müəllimləri öz yaradıcı işlərini dəqiq planlaşdırır, elmi tədqiqatların səmərəli metodlarından faydalanırlar. Onlara geniş məlumatlılıq, erudisiya xasdır. Getdikcə bu keyfiyyətlərini daha da inkişaf etdirirlər.

*Nəzəriyyəçi-intuitiv tip* yeni, orijinal ideyalara üstünlük verir. Bu insanlar, adətən böyük kəşflərin müəllifləri, yeni elmi baxışların, məktəblərin, istiqamətlərin yaradıcılarıdırlar. Onlar öz ideyalarının ümumqəbul olunmuş ideyalara zidd gəlməsindən çəkinmir, müstəsna səviyyəli böyük fantaziya və təxəyyülə yiyələnirlər.

*Təcrübəçi (eksperimentator*) həmişə özünün yeni orijinal fərziyyəsini eksperimentin köməyi ilə yoxlayır. Bu tip insanlar texniki avadanlıq və vasitələrlə işləməyi xoşlayır, praktik işə böyük maraq göstərirlər.

Digər tip yaradıcı şəxsiyyət olan *təşkilatçı* yeni ideyaların işlənib hazırlanması və tətbiqi sahəsində digərlərinin, kollektivin fəaliyyətini, təşkil etməyə meyillidir və buna müvəffəq olur. Belə şəxslərin rəhbərliyi altında orijinal elmi məktəblər və yaradıcı kollektivlər formalaşır. Bu tip insanlar yüksək enerjisinə, başqalarına öz iradəsinə tabe edərək böyük yaradıcı vəzifələri yerinə yetirməyə qadir olur.

*Təşəbbüskar* tip başqaları ilə müqayisədə təşəbbüskarlığı, işgüzarlığı, zəhmətsevərliyi, fəaliyyətə dərin yanğısı ilə seçilir. Fəqət onlar bu şəxslər bir də görürsən ki, müəyyən işə xitam verərək, digər yaradıcı vəzifələrin yerinə yetirilməsinə başlayır.

V.V. Krayevskinın qənaətincə, müəllimin yaradıcı fəaliyyətinin iki əsas forması mövcuddur:

1) təhsil prosesində baş qaldıran pedaqoji situasiyalar zamanı məlum vasitələrdən yaradıcı şəkildə istifadə etməsi;

2) konkret pedaqoji situasiyanı nəzərə alaraq ona uyğun yeni vasitələrin tətbiqi.

Pedaqoji yaradıcılıq təlim prosesini, ingilis dili dərslərini, şagirdləri idarə etmək baxımından faydalıdır, şagirdlərin müstəqilliyini, idrak fəallığını, təşəbbüskarlığını təmin edir, eyni zamanda məktəblilərdə idrak marağı yaradır.

İngilis dili dərslərində pedaqoji yaradıcılığın təzahür formaları barədə nə demək mümkündür?

Pedaqoji yaradıcılıq bir növ vaxtilə işlənib hazırlanmış metodların və fəaliyyətin təşkili formalarının yeni pedaqoji situasiyalara uyğunlaşdırılmasıdır. Bu sahədə pedaqoji əməyin rolu böyükdür. Pedaqoji əmək dedikdə, təhsilalanların təlimi, tərbiyəsi, təhsili və inkişaf etdirilməsi məqsədilə həyata keçirilən məqsədyönlü yaradıcı fəaliyyət başa düşülməlidir. Pedaqoji əmək qeyri-yaradıcı ola bilməz.

Tədqiqatçılar pedaqoji innovasiyaları pedaqoji yaradıcılığın təzahür formalarından biri kimi qeyd edirlər.

Pedaqoji yaradıcılıq pedaqoji texnika və pedaqoji üslub ilə də sıx surətdə bağlıdır. Prof. A.N. Abbasov *pedaqoji texnika* deyəndə, “ayrı-ayrı məktəblilərə, yaxud şagird kollektivinə pedaqoji təsir metodlarını səmərəli şəkildə tətbiq etməkdən ötrü müəllimə lazım olan bilik, bacarıq və vərdişlər kompleksi” (1, s. 14); *pedaqoji üslub* dedikdə isə, “təhsil müəssisələrindəki fəaliyyəti dövründə müəllimin yiyələndiyi pedaqoji ustalığın səciyyəvi əlamətləri” (1, s. 14) diqqət mərkəzinə gətirir.

Yuxarıdakı tərifdə pedaqoji ustalığı adı çəkildi. Pedaqoji ustalıq pedaqoji fəaliyyətdə çox önəmli məsələdir. Qarşıya belə bir sual çıxır: Pedaqoji ustalıq nədir? Pedaqoji yaradıcılığın kamilliyi pedaqoji ustalığa aparır. Hər bir peşə sahibi, o cümlədən ingilis dili müəllimi

özünün pedaqoji ustalığı qayğısına qalmalıdır. Başqa sözlə, pedaqoji ustalığa yiyələnməli, onu daim təkmilləşdirməlidir.

Prof. A.N. Abbasov pedaqoji ustalıqdan danışarkən göstərir: "Pedaqoji ustalıq — nəzəri və metodik hazırlığa, pedaqoji takt, texnika və qabiliyyətə malik müəllimin pedaqoji prosesi təşkil və idarəetmə bacarığı"dır (1, s. 14).

İngilis dili dərslərində müəllimin bu dilə yiyələnməsində psixoloji, texniki, intellektual və peşə hazırlığı hələ kifayət etmir. Dərsə həm də emosional baxımından hazır olmaq lazımdır. İdrak, dərketmə, idrak fəaliyyəti təfəkkürlə sıx surətdə əlaqədardır. Məlum olduğu kimi, "təfəkkür cisim, hadisə və təsəvvürlərin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqlarının, ümumiləşdirilmiş və vasitəli inikasından ibarət olan idrak prosesi"dir. Duyğular və qavrayış isə təfəkkürün əsas mənbələri hesab edilir.

Müəllim şagirdin nəinki ağlına, eyni zamanda hisslərinə təsir etməyi bacarmalıdır. Odur ki, müəllim öz hisslərini yalnız sözlərlə deyil, eyni zamanda mimikası, jestləri və hərəkətləri ilə ifadə etməyi bacarmalıdır. İngilis dili dərslərində aktyorluq ustalığı pedaqoji yaradıcılığın təzahür formalarından biridir.

Müəllimin teatr incəsənətinin prinsip və qanunlarına bələd olması bu sahədə ona böyük kömək göstərərdi. İngilis dili dərslərində rollu oyunlardan istifadə zamanı aktyorluq ustalığı lazım gəlir. Təhsil məqsədlərini həyata keçirmək üçün istifadə olunan rollu oyunlar nitq situasiyasının təşkilinin səmərəli formalarından hesab edilir. Rollu oyunlarının əsasında məktəblilər, o cümlədən yuxarı sinif şagirdləri arasında rolların və oyun süjetlərinin bölüşdürülməsinə uyğun olan nitq ünsiyyəti dayanır.

Ünsiyyətin bu formasının (rollu oyunların – R.Q.) tədqiqi bir neçə istiqamətdə həyata keçirilir. Bir istiqamət belədir: uşaq yaşda fəaliyyətin oyun formasının tədqiqi (D.B. Elkonin, N.Y. Mixaylenko və b.).

Digər istiqamətlər bunlardır: xarici dilin təlimində tədris-nitq situasiyalarının tətbiqinin metodik baxımdan əsaslandırılması (E.İ. Passov, V.L. Skalkin, Q.A. Rubinşteyn, E.İ. Matetskaya, Q.B. Roqova və b.); situativ rolun metodik anlayış kimi müəyyənləşdirilməsi (M.L. Vaysburq və b.); nitq ünsiyyəti vəziyyətinin metodik kateqoriya və təlimin təşkili prosesinin forması kimi müəyyənləşdirilməsi (A.M. Stoyanovski, E.İ. Passov və b.); rollu oyunlardan istifadə etməklə dialoji nitqin təlimi təcrübəsinin ümumiləşdirilməsi (N.K. Sklyarenko, T.İ. Oleynik və b.) və s.

Müəllim əyani şəkildə rol necə oynayacağını şagirdə başa salır, həm də öz hərəkətlərini təkcə təhsil baxımından deyil, eyni zamanda emosional baxımdan istiqamətləndirir. Yuxarı sinif şagirdlərində idrak marağına nail olmaq üçün onlarda motivasiyanın yaradılması vacibdir. Müəllim şeirlər, atalar sözləri və məsəlləri, müdriklərin fikirləri, nəsihətlər vasitəsilə öz yaradıcılığını nümayiş etdirə bilər.

Qrammatik və leksik istiqamətli yeni mövzunun öyrənilməsi zamanı şeirlərə müraciət olunması məsləhət bilinir.

Müəllimin ingilis dili dərslərində yaradıcılığı şagirdləri də yaradıcılığa təhrik edir. Şagirdlərə ingilis dilində olan şeirləri formalaşdırmaq öyrədilir. Buna necə nail olunur? Şeirlər seçilir və məktəblilərə təqdim olunur. Həmin şeirlərdə sonuncu sətir ötürülür. Müəllim onlara tapşırıq verir: "Təsəvvürünüzə gətirin. Sonuncu sətri necə tamamlamaq olar?"

Diqqət yetirək:

Through my window I can see
The young hew moon above the tree,
Slender, crescent, silver bright,

??????????????????????????

Berta Lavrencenin "The new Moon" şeirinin bu bəndinin sonuncu sətri belə bitir: "*In the cold and frosty night*". Bunu şagirdlər bilməyə bilər. Onlardan tələb olunan odur ki, özləri bildikləri kimi şeiri tamamlaya bilsinlər, qafiyə tapsınlar.

Və yaxud, See the pretty snowflakes,
Falling from the sky,
On the walls and house-tops
Soft and thick they lie,
On the window-ledges,
On the branches bare,
See how fast, they gather,
???????????????
(*Cavab*: *Filling all the air*).
Look into the garden.
Where the grass was green,
Covered by the snowflakes,
Not a blade is seen,
Now the bare black bushes,
All look soft and white,
Every twig is laden –
?????????????????
(*Cavab*: *What a pretty sight).*

Qeyd etdiyimiz kimi, şagirdlərin vəzifəsi ötürülənləri istənilən sözlərlə, lakin uyğun gələn və qafiyəli sözlər və fikirlə tamamlamaqdır.

Nitq və təfəkkür vəhdət təşkil edir. Bəziləri nitqlə təfəkkürü eyniləşdirirlər. Bu, düzgün deyildir. Onların arasında nə qədər bağlılıq olsa da, fərqlidirlər. Nitq təfəkkür prosesinin özü kimi nəzərdən keçirilə bilməz.

Eksperimentə cəlb edilmiş X-XI siniflərdə ingilis dili dərslərində yazının, oxunun, canlı danışığın təşkili, qrammatik materiallarının nəzərdən keçirilməsi, proqram materiallarının mənimsənilməsi zamanı şagirdlərin idrak fəallığının təmin edilməsinə nail olunurdu. Yuxarı sinif şagirdləri mətnlərin, qrammatik materialların öyrənilməsi gedişində meydana gələn çətinliklərin həll etməkdən, bu və ya digər suala cavab tapmalarından ötrü düşünür, bu zaman istər-istəməz bəzi fikri əməliyyatları yerinə yetirməli olurlar. Aşağıdakı fikri əməliyyatlara müraciət edilirdi: *təhlil* (cisim və hadisələrin fikrən hissələrə ayrılması), *tərkib* (cisim və hadisələrin fikrən birləşdirilməsi), *müqayisə* (cisim və hadisələr arasındakı oxşar və fərqli xüsusiyyətləri fikrən müəyyən etmək), *ümumiləşdirmə* (məqsədi cismin xassələrini fikrən ayırmaq və sonra birləşdirmək olan fikri əməliyyat), *mücərrədləşdirmə* (cisim və hadisələrin ikinci dərəcəli xüsusiyyətlərinin diqqət mərkəzində dayanması), *konkretləşdirmə* (müəyyən ümumi müddəaya aid olan xüsusi halların fikrən müəyyənləşdirilməsi), s*istemləşdirmə* və *yaxud təsnifat* (əsas hesab edilən əlamətlərə rəğmən oxşar cisimlərin müxtəlif şəkildə qruplaşdırıla bilinməsi).

Eksperimentə cəlb edilmiş X-XI siniflərdə ingilis dili dərslərində şagirdlərdə idrak fəallığının formalaşdırılması zamanı təfəkkürün əyani-əməli təfəkkür, konkret təfəkkür, mücərrəd təfəkkür, nəzəri təfəkkür, nəzəri təfəkkür, əməli təfəkkür, texniki təfəkkür, bədii təfəkkür, məntiqi təfəkkür, dialektik təfəkkür və s. növlərindən istifadə olunurdu.

İngilis dili dərslərində şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsi zamanı eyni

zamanda ağlın keyfiyyətləri də diqqət mərkəzində dayanırdı. Buraya ağlın müstəqilliyi, ağlın tənqidiliyi, ağlın çevikliyi, ağlın genişliyi, ağlın dərinliyi, fikrin sürəti kimi məsələlərin nəzərə alınması dil öyrənmənin, ingilis dilinə yiyələnmənin səmərəliliyini artırırdı.

İngilis dili dərslərində *ağılın müstəqilliyi* yuxarı sinif şagirdlərinin özlərinin biliklərinə və təcrübələrinə əsasən cisim və hadisələrin qanunauyğunluqlarını, başlıca əlaqə və münasibətlərini, əlamətlərini və xüsusiyyətlərini anlamalarında, qazandıqları biliklərdən və topladıqları məlumatlarından faydalanmaqda öz ifadəsini tapır.

Bu zaman idrak fəallığı aşağıdakı cəhətlərlə səciyyələnir:

1) bu və ya digər şəxsin (müəllimin, valideynin) köməyi olmadan qarşısına məqsəd, tapşırıq, məsələ və sual qoymaq;

2) qarşıda dayanan məqsədə nail olmaq üçün fikirləşib, ölçüb-biçib vasitə, cavab və yol tapmaq, müvafiq nəticə çıxarmaq;

3) hər hansı bir cisim, hadisə və təzahürü yaradan səbəblərlə bağlı zəruri hökm və mühakimələr irəli sürmək.

X-XI siniflərdə ingilis dili dərslərində *ağılın tənqidiliyi* məktəblinin 1) əldə olunaraq dərk edilmiş məlumatları, bilikləri, fərziyyə və faktları, başqaların və eyni zamanda özünün mövqeyini, fikir və mülahizələrini, qənaətlərini saf-çürük etməsində; 2) idrak obyektlərində müşahidə olunan uyğunsuzluqları və səhvləri müəyyənləşdirməsində; 3) müsbət və qüsurlu halların başvermə səbəblərini tapmasında öz əksini tapır.

İngilis dili məşğələlərində yuxarı sinif şagirdlərinin ağlının dərinliyi aşağıdakı cəhətlərlə şərtlənir: onlar proqram materialına əsasən dərsə nəzərdən keçirilən məsələnin mahiyyətini tələb olunan səviyyədə dərk edə bilir, vu və digər hadisəni meydana gətirən səbəbləri anlayır, hadisələrin nəticələrini qabaqcadan görür.

Şagirdin dərin ağla malik olması onun cisim və hadisələrə müxtəlif tərəflərdən yanaşa bilməsinə, təhlillər aparmasına, zəruri nəticəyə gəlməsinə imkan verir. Bundan başqa, haqqında danışılan məktəbli ilk baxışda adi, asan və sadə, başqalarına da məlum görünən hadisələrdə yeni cəhətlər aşkara çıxara bilir.

İdrak fəallığında ağlın çevikliyi də mühümdür. Ağlın çevikliyi təlim prosesində verilən suallara şagirdin dərhal cavab tapmasında, qəfil meydana gələn pedaqoji situasiyalardan vaxt itirmədən baş çıxarmasında və s. özünü göstərir.

Şagirdin idrak fəallığının mühüm göstəricisi olmaq baxımından fikrin sürəti xüsusilə diqqət mərkəzinə gəlir. İngilis dili dərslərində yuxarı sinif şagirdləri qrammatik materialları öyrənərkən, mətni Azərbaycan dilindən ingilis dilinə, ingilis dilindən Azərbaycan dilinə tərcümə edərkən, ingilis dilində danışarkən, ingilis dilində şeri deyərkən, mahnı oxuyarkən, ingilis dilində olan tapmacanı taparkən – onun cavab reaksiyalarının müddəti fikrin sürətini müəyyən edir. Yəni bu və ya başqa məsələni həll edərkən məktəblinin son cavabının müddəti qısa, yaxud uzun ola bilər. bu müddət nə qədər az olarsa, fikrin sürəti haqqında müsbət fikir formalaşar.

X-XI siniflərdə ingilis dili dərslərində şagirdlərin idrak fəallığının səmərəliliyi onların fikrinin məntiqiliyindən xeyli dərəcədə asılıdır. İdrak fəallığının səmərəliliyinə imkan verən cəhət – şagirdin ardıcıl, əsaslı və düzgün düşünməsi ilə müəyyən edilir.

**Məqalənin aktuallığı.** İngilis dili dərslərində pedaqoji yaradıcılığın nümayiş etdirilməsi özünün aktuallığı ilə seçilir. Bu, yuxarı sinif şagirdlərində idrak fəallığının formalaşdırılmasına imkan və şərait yaradır.

**Məqalənin elmi yeniliyi.** İngilis dili dərslərində pedaqoji yaradıcılığın yuxarı sinif şagirdlərində idrak fəallığının formalaşdırılmasındakı rolu diqqət mərkəzinə gətirilir.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika: müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.
2. Чуркина В.О. Активизация познавательной деятельности учащихся на уроках английского языка. https://solncesvet.ru/активизация-познавательной-деятель-3/

**Р. Ганиева**

## Педагогическое творчество на уроках английского языка и роль его в формировании познавательной активности у старшеклассников

## Резюме

Владение английским языком становится в настоящее время одним из условий профессиональной компетентности учителя. Английский язык даёт возможность приобщиться к международному информационному банку.

Интерес к изучению английского языка в старших классах ослабевает. Поэтому идет постоянный поиск путей активизации познавательного интереса у школьников, в том числе у старшеклассников. Одним из условий формирования познавательного интереса у учащихся ученые считают педагогическое творчество.

**R. Ganiyeva**

## Pedagogical creativity at the English lessons and its role in the formation of cognitive activity among high school students

## Summary

Proficiency in English is now becoming one of the conditions for professional competence of a specialist. English gives you the opportunity to join the international information bank.

Interest in learning the English language in high school is weakened. Therefore, is a constant search for ways to enhance cognitive interest among schoolchildren, including high school students. One of the conditions for the formation of cognitive interest among students, scientists believe pedagogical creativity.

**Redaksiyaya daxil olub:** 11.02.2019